

# Şəhidlik elə bir zirvədir...

***Şanlı tariximizə yazılan Vətən müharibəsi Azərbaycan xalqının mübarizliyini və yenilməzliyini bir daha dünyaya nümayiş etdirdi. Neçə-neçə igid oğullar torpaqlarımızın azadlığı uğrunda canlarından keçərək şəhidlik zirvəsinə yüksəldilər.***

***Qədim Biləsuvar yurdu da bu gün öz qəhrəman oğulları ilə fəxr edir. Birinci Qarabağ müharibəsində 131, Vətən müharibəsində isə 69 şəhid verib. 1 nəfər Milli, 3 nəfər isə Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb. Ötən ilin sonunda rayon rəhbərinin ideya müəllifliyi ilə işıq üzü görmüş "200" adlı kitab münaqişə başlandığı gündən qələbəyədək olan bir dövrdə işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda canından keçən 200 biləsuvarlı qəhrəman şəhidə həsr olunub. Kitabda hər bir şəhid haqqında ətraflı məlumat verilmişdir. 200 biləsuvarlı bütün şəhidlər kimi onilliklər sonra da qəhrəman, daim fəxr mənbəyi olacaqdır.***

Vətən müharibəsində bu zirvəyə çatmaq üçün canını doğma yurda fəda edərək şəhidliyə yüksələn igid oğullarımız arasında 1989-cu il iyulun 1-də Biləsuvar rayonunun Zəhmətabad kəndində anadan olmuş Tağıyev Elçin Ağaqulu oğlu da vardır. Elçin 2004-2007-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, daha sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. 2011-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin Qusar rayonunda yerləşən "N" saylı hərbi hissəsində leytenant hərbi rütbəsində xidmətə başlayıb. 2016-cı ilin Aprel döyüşləri zamanı dostu baş leytenant Ziya Həsənov şəhidlik zirvəsinə yüksəldikdən sonra Müdafiə Nazirliyinə hərbi xidmətini döyüş bölgəsində davam etdirmək üçün müraciət edir.

2020-ci il sentyabrın 27-də kapitan Elçin Tağıyev Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərə qatılır. Oktyabrın 1-də şəhid olur. Elçin Tağıyev ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən "Qarabağ" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Elçin qısa bir ömür yaşadı. Lakin elə bir şanlı ömür ki, unudulmaz qəhrəmanlığı, şücaəti ilə əbədiyyətə qovuşdu, əsl Vətən oğlunun çətin məqamlarda edə biləcəyi son borcunu şərəflə yerinə yetirdi. O, igidliyi, qəhrəmanlığı ilə elə-obaya gərəkli övlad, Vətənə layiqli oğul oldu, qəhrəmanlığı ilə hər kəsin başını uca etdi. Onu tanıyanlar, əsgərləri, zabit yoldaşları haqqında ancaq və ancaq müsbət fikirlər söyləyirlər: "Elçin mərd, qeyrətli və çox mükəmməl bir insan idi. Əsgərləri canından çox sevir, onların hər birinə diqqətlə yanaşardı. O, cəsur, fədakar, çəldliyi, çevikliyi ilə hər kəsə nümunə idi".

Şəhid kapitan üç azyaşlı övlad atası idi. 6 yaşlı Dəryanur, 3 yaşlı Tağı və 1 aylıq Məhəmməd adında övladı yadigar qaldı. Bəli, bu körpələr böyüyüb şəhid övladları olaraq tanınacaqlar. Onlar ata deyə biləsələr də, məhz atalarının qürurlu adı ilə hər zaman başıuca, alnıaçıq yaşayacaqlar.

Bəli, şəhidlik elə bir zirvədir ki, ünvanı əbədiyyətdir. Ömrünü Vətən yolunda qurban verən Elçin qələbəni görməsə də,adını heç zaman unudulmayacaq qəhrəmanlar salnaməsinə yazdırdı. Nə qədər ki, canını Vətən uğrunda əsirgəməyən igidlərimiz var. Azərbaycan daima yaşayacaq, ucalacaq və qalib gələcək!

**Müşfiq MİRZƏ,**
**"Respublika".**